**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

22.08.2022-ci il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Cinayətkarlıqla mübarizə ilə bağlı xərclər" işçi qrupunun 2022-ci il üçün Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal Rəqabətlilik Hesabatı*** | | | | | | | |
| 1. | **1.01 Mütəşəkkil cinayətkarlıqla mübarizə** | 18-ci yer, 79,6 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən Rəhbərlərin Rəyi Sorğusunda "Ölkənizdə mütəşəkkil cinayətkarlıq (reket, qəsb və s.) bizneslər üçün nə qədər xərclərə səbəb olur?" sualına cavab: [1 = böyük xərclərə səbəb olur; 7 = heç bir xərc tələb etmir]. | Cinayətkar dəstələrin formalaşma mərhələsində zərərsizləşdirilməsi, odlu silahı qanunsuz olaraq gəzdirən və saxlayan şəxslərin müəyyən edilməsi, habelə cinayətkar aləmdə tanınmış şəxslərin biznesə təsirinin qarşısının alınması istiqamətində təkliflərin hazırlanması və tətbiqi | 01.10.2022 (təkliflərin hazırlanması)<br>Mütəmadi (təkliflərin tətbiqi) | Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, Ədliyyə Nazirliyi | İsmət Əliyev,<br>Əmir Ocaqverdiyev,<br>Miri Bağırov |
| 2. | **1.02 İntiharların sayı** | 64-cü yer, 94,9 bal | Ölkənin hər 100 000 nəfər əhalisinə düşən intihar hadisələrinin sayı. | İntihar hadisələrinin təhlili və beynəlxalq təcrübə əsasında intihar risklərinin qiymətləndirilməsi, eləcə də şəxslərin anti-intihar faktorlarının ailələrdə, əmək kollektivlərində, təhsil müəssisələrində, dini icmalarda təbliği üzrə təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2022 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi | Şəbnəm Cəfərova,<br>Miri Bağırov,<br>İsmət Əliyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3. | **1.03 Terror hadisələri** | 78-ci yer, 99,7 bal | Bu göstərici terror hadisələrinin tezliyini və şiddətini qiymətləndirir. Qiymət 0-100 arasında dəyişir. [0 = ən yüksək təhlükə (insident);<br>100 = təhlükə yoxdur (insidentsiz)]. | Terror hadisələrinin qarşısının alınması istiqamətində mütəmadi olaraq preventiv tədbirlərin görülməsi<br>(*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 8 oktyabr tarixli 266s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Terrorçuluq barədə bilə-bilə yalan məlumatların yayılması hallarının qarşısının alınmasına dair Kompleks Tədbirlər Planı”nın icrasına dəstək)* | İl ərzində | Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Baş Prokurorluq | İsmət Əliyev,<br><br>Toğrul Şahbalayev,<br><br>Əmir Ocaqverdiyev |
| 4. | **1.04 Polisə etimad** | 30-cu yer, 76 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən Rəhbərlərin Rəyi Sorğusunda “Ölkənizdə asayişi təmin etmək üçün polis xidmətlərinə nə dərəcədə etibar etmək olar?” sualına cavab: [1 = ümumiyyətlə etibar etmək olmaz;<br>7 = tam etibar etmək olar]. | Polis-vətəndaş münasibətlərinin daha da yaxşılaşdırılması, cəmiyyətdə polisin işgüzar nüfuzunun artırılmasına dair beynəlxalq təcrübəyə əsaslanan təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2022 | Daxili İşlər Nazirliyi | İsmət Əliyev |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 5. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun üzvləri |
| 6. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun üzvləri |